HƏFTƏ İÇİ
www.hafta.az | hafta-ichi@rambler.ru
14 - 20 oktyabr / 2021

# Zəngəzuru Ermənistana Nərimanov verməyib...

## Müsahib

***Azərbaycan və Türkiyənin Zəngəzur dəhlizinin açılmasına doğru diplomatik müstəvidə atdığı hər bir addım regionda maraqları görünən, erməni himayə edən qonşu dövlətləri qıcıqlandırır. Zəngəzur dəhlizinin açılması kimləri narahat edir və niyə narahat edir? Bu istiqamətdə hafta.aza müsahibə verən Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli maraqlı fikirlər söyləyib.***



Fəzail İbrahimli,
Milli Məclisin vitse-spikeri

***- Fəzail müəllim, bu gün Zəngəzur dəhlizinin açılması bəzi dövlətləri narahat edir. Bu açılım regionda kimlərin yollarını "bağlaya" bilər?***

- Zəngəzur dəhlizinin açılmasından kimlərin narahat olmasını bölgənin tarixini araşdırıqda daha aydın görə bilərik. Məlumdur ki, Zəngəzur Azərbaycanın tarixi ərazisi olub. 1920-ci ilin dekabr ayının 1-də Zəngəzur Kommunist Partiyası Mərkəzi Komitəsinin təşkilat və siyasi bürosu tərəfindən bölünüb və bir hissəsi Ermənistana verildi. Zəngəzurun Ermənistana verilən hissəsi, demək olar ki, Türkiyə ilə Azərbaycan ərazisindəki quru sərhədi bağladı. Düzdür, bunun günahını Nəriman Nərimanovun üstünə atmağa çalışırlar, amma o zaman onun bu məsələdə zərrə qədər də rolu ola bilməzdi. O, Azərbaycan hökumətinin başçısı idi, bunu isə Mərkəzi Komitənin təşkilat və Siyasi Bürosu edirdi. Sadəcə, çıxardıqları qərarla bağlı Nərimanova bir kağız verdilər və o da bu qərarı oxumalı oldu. Ona görə də tarixdə Nərimanov Zəngəzurun verilməsi prosesinə qoşulan bir insan kimi daxil olub, əslində dediyim kimi belə deyil. Zəngəzurun bir hissəsinin alınıb Ermənistana verilməsi, sadəcə, Ermənistan ərazisinin genişləndirilməsi deyil. Bu, dünyada gedən çox böyük geosiyasi maraqlardan doğan bir məsələdir. Vaxtilə Avrasiyada vahid türk xətti olub. Həmin xətt Altaydan başlayıb, Orta Asiyaya qədər gəlib. Bu türk xəttinin parçalanması, türk dövlətlərinin, türklərin bir-biri ilə əlaqələrinin qırılması böyük dövlətlərin maraqlarında olan bir siyasət olub və tədricən həyata keçirilib.

Faktlara nəzər salaq: türk xəttinin sındırılması ilk dəfə Altaydan başlayıb. Buna nail olmaq üçün Sibirdə yaşayan bütün türklər assimilyasiya edilib. Sibir türklərinin assimilyasiyaya uğraması nəticəsində Altay türkləri bölgədən ayrı düşüb. Qafqaz siyasətində də bu türk xəttinin sındırılması prosesi gedir. Məsələn, tatarlar, türkdilli qaraçaylar və bolqarlar Krımdan sürgün edilir. Azərbaycan isə Şimali Qafqazda olan türklərdən tədric edilir. Növbəti xəttin sınması Zəngəzurla bağlı olur. Zəngəzurun bölünməsi ilə Türkiyə ilə Azərbaycan arasındakı əlaqə itir. Altaydan başlayıb gələn Türkiyə-Azərbaycan-Orta Asiya xətti sındırılır. Bax budur, Zəngəzurun verilməsinin fəlsəfəsi.

Unutmayaq ki, 1918-ci il mayın 29-u İrəvan xanlığı, 20-ci ildə də Zəngəzur Azərbaycandan qoparılaraq Ermənistana verilib, daha doğrusu, onun üzərində erməni dövləti qurulub. İrəvanın verilməsində də bir tarixi proses var idi. Bu, Xristian dünyasının Türk dünyasına qarşı yeritdiyi geosiyasi maraqların nəticəsi idi. Təsəvvür edin ki, 20-ci ildə erməniyə verilən o torpaqla qırılmış türk xəttinin 1 əsrdən sonra bərpa prosesi başlayıb. Zəngəzur dəhlizi tək iqtisadi xarakter daşımır. Avrasiyada sındırılmış Türkiyə-Azərbaycan arasındakı o xətt bərpa olunur. Bax, bunun fəlsəfəsi, mənası, əsas cəhətləri budur.

***- 1 əsr əvvəl Qərbi Zəngəzurun Azərbaycandan qoparılması ilə həmin türk xəttini qıranlar bu gün də onun birləşməməsi üçün dəridən-qabıqdan çıxırlar.***

- Kafir öz xoşuna cəhənnəmə getmir. Onu döyə-döyə yollayırlar. Sadəcə olaraq, bu gün üstü İslam, içi çürük imperialist xristiandan da betər müəyyən qüvvələr var ki, çapalayırlar. Həmin qüvvələr bu gün təşvişə düşüb, narahat olurlar ki, türk xətti birləşərsə bu, türklərin güclənməsi, Türk dünyasının ayılması olacaq. "XXI əsr türk əsridir"- ifadəsi elə-belə işlənmirdi. Bu gün hər kəs dünya liderləri sırasında türkün böyük lideri Rəcəb Tayyib Ərdoğanın böyük rola malik olduğunu görür. Hər kəs qələbədən sonra cənab İlham Əliyevi yüksək diplomatiyanın, hərbi gücün, dövlətin qüdrətinin, xalqla ordunun birliyinin önündə gördü. Bütün bunların hamısı, təbii ki, maraqlı qüvvələrdə qıcıq yaradır. Azərbaycan qələbədən sonra 10 Noyabr atəşkəs sazişinə qol çəkib, üstəlik, məğlub edilən tərəf də həmin sənədə imza ataraq bir sıra öhdəlik götürüb. Burada Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəlik də var. Bu prosesdə ağsaqqallıq edən, bu gün Xankəndiyə ermənilərin yerləşdirilməsinə rəvac verən Rusiya da var. Əgər Ermənistan öhdəlikləri yerinə yetirməsə, Rusiyanın nüfuzuna təsir etmiş olur. Dünyanın məğlub dövlətləri özünün imzaladığı sənədi istəyib-istəməməsindən asılı olmayaraq həyata keçirməlidir. Türkiyə dövlətinə gəlincə, bu dövlət tək regionda deyil, Yaxın Şərqdə böyük nüfuzu, dünya siyasətinə təsir etmək mexanizminə malikdir. Bu region Türkiyə üçün hüdudları çox da böyük olmayanərazidir. İki qardaş əl-ələ verib məsələləri həll edəcək. Mən çox nikbinəm.

***- Türkiyə -Rusiya dövlət başçılarının Soçi görüşünün ardınca Putin-Paşinyan görüşü və Ərdoğanın Bakıya növbəti səfəri erməni silahlılarının ərazidən çıxarılması, sərhədlərin müəyyənləşməsi ilə bağlı məsələlərin tez bir zamanda həlli ehtimalını artırırmı və bu prosesdə İran niyə qıcıqlanır?***

> “
>
> *Əgər biz Məhəmmədi peyğəmbər, dinimizi İslam sayırıqsa, bu dinin qanunları ilə idarə olunan dövlət ona zərər gətirənlərə qarşı qətiyyətli münasibət göstərməli idi*

- Əslində, bizim İslam dövləti kimi İrandan çox böyük umacağımız var. Dövlət İslam qanunları ilə idarə olunur və bu gün İslam əxlaqını tapdalayan, müqəddəs yerlərimiz olan məscidlərə donuz bağlayan bir dövlətə qarşı İranın laqeyd münasibəti təəccüb doğurur. Dünyanın harasında İslam dövləti varsa, orada məscid var, ora Allahın müqəddəs evidir. Dövlətin öz dövlət siyasəti var, amma elə məsələlər var ki, nə İranındır, nə bizimdir, nə də Ərəbistanındır. Əgər biz Məhəmmədi peyğəmbər, dinimizi İslam sayırıqsa, bu dinin qanunları ilə idarə olunan dövlət ona zərər gətirənlərə qarşı qətiyyətli münasibət göstərməli idi. Biz bunu İrandan gördükmü? Xeyr. Əksinə, neçə illərdir, İran həmin o məscidə donuz bağlayanların müdafiəçisi kimi çıxış edir. İran Ermənistanın regionda boğulmasının qarşısını alır. İndi də Azərbaycan torpaqları işğaldan azad olunandan sonra ermənilərə ərzaq dolu maşınlar göndərir. Allah bilir, içində başqa nələr var. Ona görə də İranın bu davranışı çox qəribədir. Görünür, siyasət İranın İslam əxlaqını üstələyir. Biz də hesab edirik ki, Allah var, hər şeyi nizama çəkir, haqq sahibiyik. Heç kimin torpağına göz dikmirik, işinə qarışmırıq. Azərbaycan müstəqil dövlətdir. Kiminsə çaldığı hava ilə oynaya bilməz. Hansı dövlətlə istəsə münasibət yarada bilər. Azərbaycana qarşı münasibətlərində dürüst olan, müstəqilliyinə, qanunlarına hörmət edən, ərazi bütövlüyünü tanıyan hər bir dövlət Azərbaycan xalqı üçün əzizdir. Heç kəs buna qarşı bir söz deyə bilməz.

***- Bir tərəfdən də ATƏT-in Minsk qrupu aktivləşir. Prezident də müəyyən çıxışlarında, müsahibələrində müəyyən mesajlar verdi. Bu müstəvidə Prezidentlə Paşinyanın görüşü məsələsi də aktuallaşıb. ATƏT-in Minsk qrupu aktivləşərsə, bundan sonra regiona nəyi vəd edə bilər?***

- ATƏT-in Minsk qrupu ona görə yaradıldı ki, o vaxt leksikonda olan "Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ" problemini həll etsinlər. İndi elə bir məfhum yoxdur. Dövlət başçımız deyir ki, Dağlıq Qarabağ məfhumu yoxdur. O ərazilər iqtisadi zonalara ayrılıb. İndi ATƏT-in hərəkətləri ölmüş adam haqqında balladaya oxşayır. Minsk qrupu nəyi həll etməyə gəlir? Bu problem artıq yoxdur!

BMT-nin qərarlarını Azərbaycan yerinə yetirib, ATƏT-in qarşısında duran vəzifələri də yerinə yetirib. Bunların məqsədi odur ki, orada erməniyə muxtariyyət verilsin. Cənab Prezident bütün dünyaya bəyan edib dedi ki, kim istəyir aparıb erməniyə öz ölkəsində muxtariyyət versin, biz də onu tanıyaq. Azərbaycan ərazisində "Dağlıq Qarabağ" məsələsi gorbagor olub, tarixdən silinib. Minsk qrupu indiyə kimi nə etdi ki, indi gəlib nə etsin...

Siz Minsk qrupunda təmsil olunan ölkələrə fikir verin: Rusiya, Fransa, Amerika. Dünyanı qatıb-qarışdıran ölkələr. Deyir, bağa yolda yeriyə bilmir, dayısı oğlunu da belinə götürür. Gəlin görək, Amerika ilə Rusiya bir-biri ilə yola gedə bilir ki, gəlib Azərbaycanda da hansısa məsələni həll etsinlər?!

Dünyanı iqtisadi böhrana qərq ediblər, gedib öz problemlərini həll etsinlər. Fransa ümumiyyətlə Azərbaycanla danışmağa mənəvi, siyasi haqqını itirib. Fransa bunu müharibə dövründə də, müharibədən sonra da göstərdi. Bunlar "demokratiya bayrağı" altında danışırlar, ondan xəbərləri yoxdur. Hələ 100 il əvvəl, 1913-cü ildə Əhməd bəy Ağaoğlunun demokratiya haqqında "Balkan mətbuatı və rus vəhşiliyi" adlı bir məqaləsi çıxmışdı. Yazırdı: "Hamımızın böyük ehtiyac duyduğu Avropa demokratiyasının rəngi Balkan müharibəsindən sonra bizim gözümüzdə dəyişdi. Məlum oldu ki, Avropa demokratiyası Avropa fabriklərinin İran bazarını dolduran üstü bəzək, içi çürük məhsullardan başqa bir şey deyilmiş".

Bu demokratiya 28 ildə Azərbaycanın nəzərində dəyişdi. Demokratiya adı altında bu dövlətlər Azərbaycana qarşı mürtəce siyasət yürütdü. Boz üzlərini və sırtıq sifətlərini göstərdilər. "Demokratiya" adı ilə Azərbaycanın haqq işinə qarşı atılan addımlardan "Demokratiya" adı altında qanlı kitab yazıldı. Bizim gələcək nəsil həmin boya ilə yazılmış kitabı oxuyanda hamısı birağızdan deyəcək: "Tfu sizin üzünüzə".

***- Sizcə, ATƏT-in Minsk qrupu bu dəfə Ermənistanı sülh sazişi imzalamağa cəlb edə biləcək?***

- ATƏT-in Minsk qrupu bizim üçün heç bir iş görə bilməz. Onun qarşısında bir məqsəd var: bu da ondan ibarətdir ki, "Dağlıq Qarabağa status" versinlər. Sülh sazişi, sərhədlərin müəyyən edilməsi, sülhməramlıların çıxarılması ilə bağlı heç bir istəkləri yoxdur. Ona görə də ATƏT-in Minsk qrupu ilə bağlı müzakirəyə ehtiyac yoxdur.

***- 27 sentyabrda Azərbaycan Ordusunun əks-hücuma başlamasının 1 ili tamam oldu. Torpaqların işğaldan azad olunduğu günlər qeyd edilir, şəhidlər anılır. Prezident Cəbrayılın işğaldan azad olunması ilə bağlı etdiyi çıxışında çox məsələlərə toxundu. İrana, eləcə də cinayətkar Sarkisyanın əməllərinə diqqət çəkdi...***

- Prezident İrana mesaj verdi ki, hər kəs öz işi ilə məşğul olmalıdır. Azərbaycan müstəqil dövlətdir. Özünün daxili, xarici siyasətini yaxşı bilir. Sən müsəlman dövləti kimi mənə təəssübkeşlik etmirsənsə, heç olmasa mənə ziyan gətirmə. Azərbaycan kiminsə diqtəsi ilə hansısa dövlətlə münasibət qurmur. İran tərəfi bizim İsraillə münasibətlərimizə mənfi münasibət bəsləyir. Unutmasın ki, müharibə dövründə o yox, İsrail Azərbaycanın haqq işini müdafiə etdi. Sarkisyanın iç üzünü açdı. Boz sifətini, xalqa xəyanət etdiyini, o milləti 20 il "Qarabağ haqqında düşüncələr"lə aldadıb var-dövlətini taladı. Bir daha Ermənistan xalqını ayıltdı ki, siz neçə il bu serjiklərin əsiri olmusunuz. Əslində, bu fikirlərlə "böyük Ermənistan" ideologiyasının iflasını üzə çıxardı. Prezident öz çıxışında dəfn etməkdə olduğu "böyük Ermənistan" ideologiyasının tabutuna sonuncu mismarı vurdu.

Tahirə